Şəki

**Bu günlərdə Şəki yenə də bayramsayağı bəzənmişdir. Bu gözəl diyar yenə də toylu-büsatlı, qonaqlı-qaralı idi. Amma indi məqsəd başqa idi.**

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkil etdiyi İpək bayramına dəvət alanların sırasında elm və mədəniyyət xadimləri ilə yanaşı ayrı-ayrı ölkələrin səfirliklərin (Türkiyə, Rusiya və.s) qardaşlaşmış Qabrova və Lapseki şəhərlərinin nümayəndələri vardı. Onlar şəhərin "Olimpiya meydanı"-nda gül-çiçəklə qarşılandılar.

Tədbiri giriş sözü ilə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Nazim İbrahimov açdı. O, qonaqlara Şəkidə ipəkçiliyin tarixindən, həmçinin onun zəngin sənət və folklor ənənəsindən danışdı.



# İpək bayramı

***Şəki respublikamızın ən böyük bölgələrindəndir. Zəngin təbiəti, axar-baxarlı dağları, meşələri bu yerləri həmişə qonaqlı-qaralı edib. Bu qədim torpağa təşrif buyuranlar Şəkinin qonaqpərvərliyinə, özünməxsus adət-ənənəsinə, ustalarına, elm, ədəbiyyat və mədəniyyət xadimlərinə heyran qalıblar. Yay vaxtı Şəkinin qonağı daha çox olur. Onlar arasında əsl şəkililər də var, respublika və dünyanın ayrı-ayrı guşələrindən gələnlər də.***

Bayram proqramı öz rəngarəngliyi ilə diqqət çəkdi. Qonaqlar və bayram iştirakçıları müəyyən olunmuş marşrut üzrə hərəkət edərək Yuxarı Karvansaraya yaxınlaşdı. Karvansara gözətçisinin darvaza qarşısında qədim geyimdə silahla dayanması, yaxınlaşan karvanı (dəvələri) görüb qapıları açması təsirli epizod olduğu üçün hamının diqqətini çəkdi və alqışlarla qarşılandı.

İpək bazarı ilə tanışlıq, qonaqların Xan Sarayında rəmzi qəbulu, çay süfrəsi, İpək muzeyini ziyarət haqqında da eyni sözləri söyləməliyik.

***Maraq doğuran o oldu ki, bütün tədbirlər müsiqi ilə müşayiət edildi. Şəki ilə tanışlıq bir daha göstərdi ki, bu qədim və gözəl bölgəmizdə adət-ənənələrimiz ləyaqətlə qorunur. Bu gözəl diyara turizm axınını gücləndirmək iqtisadiyyatımıza böyük səmərə verərdi...***

**Ş.ƏKBƏROVA**



